

# Səddam Hüseynin geyrətli nəvəsi Mustafa

ABŞ-ın və dünyanın ən nüfuzlu nəşrlərindən biri olan "The New York Times" qəzeti "XXI əsrin ən cəsur və qorxmaz oğlanı"nı seçib. Həmin oğlan İraqlı Mustafa Səddam Hüseyndir.

İraqın mərhum prezidenti Səddam Hüseynin 14 yaşlı nəvəsi Mustafa - Şeyx Nəffaf Zeydanın malikanəsinə amerikalı komandoslar hücum çəkəndə onlara qarşı vuruşub.

Həmin anda Mustafa Səddam mülkdə sağ qalmış yeganə adam idi. Mustafanın yanında atası Kusay, əmisi Uday və onların mühafizəçisi Əbdül Səmədin cəsədləri vardı.

Əməliyyat iştirakçısı olan amerikalı hərbçilərin dediyinə görə, onlar həyətə girəndə Mustafa çağrılmamış "qonaq"ların qabağına əli silahlı çıxıb.

Komandosların sayı nə az, nə çox - 400 nəfəriydi. Mustafanın atası və əmisi gözünün qabağında öldürüləndən sonra uşaq düşmənlə xeyli atışdı və snayper tüfəngi ilə öz yaşı sayda, yəni 14 amerikalı dəniz piyadasını qırıb çatdı.

Mustafanın amerikan komandosları ilə döyüşü 6 saat çəkib.

Amerikanlar axırda 14 yaşlı Mustafanı qətlə yetirəndə - neçə saat boyuca bir uşaqla atışdıqlarına inana bilməyiblər.

"New York Times"ın reportyoru Robert Eysk yazır: "Əgər bizdə belə bir oğlan olsaydı, o oğlana hər şəhərdə heykəl qoyardıq. Onun cəsarətindən hər yerdə ağızdolusu danışar və onu, böyüyən nəslə örnək göstərərdik".